*Akademik Tarih ve Düşünce Dergisi* *Academic Journal of History and Idea*
*ISSN: 2148-2292*
*10 (5) 2023*
https://doi.org/ 10.46868/atdd.2023.

*Araştırma Makalesi | Research Article*
*Geliş tarihi |Received : 28.06.2022*
*Kabul tarihi |Accepted: 30.07.2022*
*Yayın tarihi |Published : 25.10.2023*

**İkram Ağasiyev**

https://orcid.org/0000-0003-0801-6683
*Professor, doctor of historical sciences, Director of the "Soviet period history of Azerbaijan" department of the History Institute named after A. A. Bakikhanov of the Azerbaijan National Academy of Sciences, ikramagasiyev@mail.ru*

**Seyid Məmmədzadə**

https://orcid.org/0009-0002-4004-9864
*Doctoral student of "History of the Azerbaijan People's Republic" Department of History Institute of Azerbaijan National Academy of Sciences, E-mail: seyid.mamedzade@mail.ru*

*Atıf Künyesi | Citation Info*

Ağasiyev, İ., Məmmədzadə, S. (2023). Don Cümhuriyəti və Güney Rusiya Silahlı Qüvvələrinin Azərbaycan Xalq Cümhuriyəti ilə münasibətləri (1918-1920). *Akademik Tarih ve Düşünce Dergisi*, *10* (5), 1287-1300.

# Don Cümhuriyəti və Güney Rusiya Silahlı Qüvvələrinin Azərbaycan Xalq Cümhuriyəti ilə münasibətləri (1918-1920)

***Öz***

*Məqalə Azərbaycan Respublikasının 1918-1920-ci illərdə mövcud olmuş Don Respublikası və Cənubi Rusiya Silahlı Qüvvələri ilə münasibətlərinə həsr edilmişdir. 1918-ci ilin yanvarında Don çayı hövzəsi ərazilərində Don Respublikası yaradılmışdır. Əhalisi əsasən Don kazaklarından ibarət olan bu respublika General Krasnovun hakimiyyəti illərində bütün qonşu dövlətlərlə, o cümlədən Osmanlı və Azərbaycan dövlətləri ilə dostluq əlaqələri yaratmağa çalışırdı. 1919-cu ilin yanvarında General Denikin Cənubi Rusiya Silahlı Qüvvələri adlı hərbi-inzibati qurum yaratdı. Denikin keçmiş Rusiya imperiyasını bərpa etməyi planlaşdırırdı və ilk işğal etdiyi torpaqlardan biri Don respublikası olmuşdur. Bu səbəbdən Don Respublikası-Azərbaycan münasibətləri Azərbaycan-Denikin münasibətləri məzmunu daşımağa başlamışdır. Azərbaycanla Denikin arasında münasibətlər ziddiyyətli olmuşdur: belə ki, Denikin Azərbaycanın müstəqilliyini tanımaq istəmirdi, onu Rusiya ərazisi hesab edirdi.*

***Açar sözlər:*** *Don Respublikası, Denikin, Dağlı Respublikası, Kazaklar, Cənubi Rusiya Silahlı Qüvvələri, General Krasnov*

# Relations of the Armed Forces of South Russia and the Don Republic with the Azerbaijan Democratic Republic (1918-1920)

***Abstract***

*The article deals with the issues of relations between Azerbaijan and the Don Republic and the Armed Forces of South Russia. The Don Republic was formed in January 1918 on the territory of the Don River basin. During the period of General Krasnov, this republic, whose population consisted mainly of Don Cossacks, tried to establish friendly relations with all neighboring states, including the Ottoman and Azerbaijani states. In January 1919, General Denikin created a military-administrative body called 'the Armed Forces of South of Russia'. In February 1919, Denikin planned to restore the former Russian Empire, and one of the first lands he occupied was the Don Republic. For this reason, the Don Republic-Azerbaijan relations began to bear the content of Azerbaijan-Denikin relations. Relations between Azerbaijan and Denikin were contradictory: So that, Denikin did not want to recognize the independence of Azerbaijan, he considered it as the territory of Russia.*

***Keywords:*** *Don Republic, Denikin, Mountainous Republic, Cossacks, the Armed Forces of South Russia, General Krasnov*

## Giriş

1917-ci il Oktyabr çevrilişi nəticəsində Müvəqqəti hökumət devrildi, keçmiş Rusiya imperiyası ərazilərində Sovet hakimiyyətinin tərəfdarı olan bolşeviklərlə köhnə Rusiyanın bərpasının tərəfdarları arasında Vətəndaş müharibəsi başladı. 1917-ci ilin noyabından 1918-ci ilin martınadək keçən bir dövrdə keçmiş Rusiya imperiyasının mərkəzi quberniyalarında bolşeviklərin hakimiyyəti bərqərar oldu. Bolşevik hakimiyyətini qəbul etməyən regionlarda, xüsusən də keçmiş imperiyanın ucqarlarında yeni antibolşevik xarakterli siyasət yürüdən gənc dövlətlər yarandı. Müvəqqəti hökumətin süqutundan sonra Rusiya imperiyasının ucqar ərazilərində yeni yaranan dövlətlərdən biri də Böyük Don Qoşunu - Don Respublikası olmuşdur.

*Mövzunun aktuallığı* ilə bağlı qeyd etmək lazmdır ki, keçmiş Rusiya imperiyası ərazilərində Vətəndaş müharibəsi dövründə (1918-1920) müxtəlif siyasi qüvvələrin bolşevizmə qarşı mübarizədə məğlubiyyəti və bu uğursuzluğun səbəblərinin araşdırılması həmişə aktualdır. Şübhəsiz, Azərbaycan Xalq Cümhuriyyəti, Don Respublikası və keçmiş Rusiya imperiyası ərazilərində yaranan sair gənc dövlətlərin süqutunun səbəblərindən ən başlıcası anti-bolşevik qüvvələrin bir araya gələ bilməməsi olmuşdur ki, bu səhvlər həm Cənubi Qafqazda, həm də Rusiyanın cənubunda yaranan yeni dövlətlərin süqutuna, bu ərazilərdə sovet hakimiyyətinin bərqərar olmasına gətirmışdir.

*Tədqiqatın məqsədi* 1918-1920-ci illərdə mövcud olmuş Don Respublikasının yaranışından süqutuna qədərki tarixini yığcam çəkildə araşdırmaq, onun fəaliyyətinin reqional xüsusiyyətlərini, xüsusilə AXC ilə əlaqələrinə aid faktları üzə çıxarmaqdır ki, bu da həmin dövrdə istər Azərbaycanda, istərsə də, ümumən Rusiyanın cənubunda gedən mürəkkəb məsələlərə aydınlıq gətirilməsinə yardımçı olacaqdır.

## 1. Don Tarixinə Qısa Ekskurs

İndiki Don əraziləri eramızdan əvvəl I minillikdən müxtəlif dövlətlərin - Bosfor skif çarlığının, Hun imperiyasının, Xəzər xaqanlığının, Deşti-Qıpçak, Qızıl Ordu dövlətlərinin, Krım və Noqay xanlıqlarının, XVI əsrin ikinci yarısından isə Moskoviya dövlətinin tərkibində olmuşdur.Uzun illər çar hakimiyyətinə müxalif qüvvə kimi çıxış edən Don kazakları II Yekaterinanın dövründən tam nəzarətə götürülmüş, Don kazak ərazilərinə xüsusi status verilmişdir.Belə ki, çar Rusiyası dövründə Don əraziləri 1786-cı ildən 1870-ci ilədək Don Qoşunları ərazisi, 1870-ci ildən 1918-ci ilə qədər isə Don Qoşunları Vilayəti kimi adlandırılmışdır. Sonuncu - Don Qoşunları Vilayətinin ərazisi – 152, 7 min kv.km. olmuşdur (Ağasiyev, Don respublikasının yaranması və fəaliyyəti, 2021).Tarixən Don əraziləri dedikdə cənubda Taqanroq-Stavropol xəttindən şimalda Voronej, şimali-şərqdə Saratov, Penza ətrafı ərazilərədək, şərqdə indiki Volqoqrad ətrafından qərbdə indiki Donetsk ətrafı ərazilər nəzərdə tutulur. Taqanroqu çıxmaq şərtilə, adı çəkilən şəhərlərin heç biri Don Qoşunları Vilayətinin tərkibinə daxil olmamışdır. Donun bayrağı tarixən 3 rəngli - göy, sarı, qırmızı zolaqlardan ibarət olmuşdur.Göy, sarı, qırmızı rənglər – tarixi Don ərazilərində yaşayan 3 xalqın – kazakların, kalmıkların və rusların birliyini simvolizə edir.Maraqlıdır ki,öncəki əsrlərdə kazaklar özlərini rus hesab etməmişlər.

1897-ci ildə aparılan Rusiya imperiyasının əhalisinin ümumi siyahıyaalınması zamanı Don Qoşunları Vilayətinin ümumi əhalisinin sayı 2 564 238 nəfər olmuşdur (Ağasiyev, Don respublikasının yaranması və fəaliyyəti, 2021). Ümumi əhalinin 320 mini şəhərlərdə yaşayırdı. Don Qoşunları Vilayətində əhalinin etnik tərkibinə gəldikdə, ruslar – 66,8%, ukraynalılar – 28,1%, almanlar -1,8%, kalmıklar – 1,3%, ermənilər – 1,1%, qalan 0,9% yəhudilər, qaraçılar, moldavanlar və sair xalqların nümayəndələri təşkil edirdi (Pervaya vseobshchaya perepis' naseleniya Rossiyskoy imperii 1897 goda. Raspredeleniye nalichnosti po rodnomu yazyku i uyezdam 50 guberniy Yevropeyskoy Rossii, 18 – 31 dekabr 2017).

Kazak silkinə aid olanlar ümumu əhalinin 40-45% təşkil edirdilər. Fevral inqilabının qələbəsindən sonra Don Qoşunları Vilayətində də bütün Rusiyada olduğu kimi, ikihakimiyyətlilik deyil, hətta demək olar ki, üçhakimiyyətlilik meydana gəldi. Onlar-1) Müvəqqəti hökumətin komissarları; 2) fəhlə, əsgər, kəndli, kazak deputatları Soveti və 3) Don

Qoşunları Vilayətinin qurultayı, onun icra orqanları olan Don Qoşunları hökuməti və Don Qoşunları Vilayətinin atamanı idi.

Adı çəkilən strukturlar arasında ən kəskin ziddiyyətlər fəhlə, əsgər, kəndli, kazak deputatları Soveti ilə Don Qoşunları hökuməti arasında olmuşdur.Bu ziddiyyətlərin yaranmasının əsas səbəbi müxtəlif hakimiyyət strukturlarının torpaq məsələsində tutduğu mövqe idi. Müvəqqəti hakimiyyətə etimad etməyən kazaklar tezliklə öz nümayəndələrini Müvəqqəti hökumətin aparatından geri çağırdılar. Oktyabr çevrilişi ərəfəsində - 1917-ci ilin oktyabrın 20-də Vladiqafqazda Kazak qoşunlarının, Qafqaz dağlılarının və Çölün azad xalqlarının Cənub-Şərq İttifaqı yaradıldı. Yeni yaranan İttifaq özünü konfederativ əsaslarda idarə olunan (ərazi vahidi) dövlət elan etdi (Krasnodar Diyar Devlet Arşivi (Rusya Federasyonu) , kısaca-KDDA, fond p-6, list.1, iş.48, v. 28 ). Cənub-Şərq İttifaqının bəyannaməsində deyilirdi ki, bu dövlətin yaradılmasında əsas məqsəd bolşevik anarxiyasına qarşı mübarizə aparmaq və Rusiyada Müəssislər Məclisinə seçkilər keçirilənədək İttifaqa daxil olan ərazilərdə stabilliyi, qayda qanunu qoruyub saxlamaqdan ibarətdir. Bəyannamədə, həmçinin Hökumətin Cənubi-Şərqi İttifaqın subyektlərinin hər birini gələcək Rusiya Demokratik Federativ Respublikasının müstəqil ştatları kimi gördüyü əks olunmuşdu. Bu mövqe Ukrayna Xalq Respublikasının 5 dekabr 1917-ci il tarixdə Rusiyanı demokratik, federativ əsaslarda yenidən qurmaq haqqında notasına cavabda bir daha təkrarlanmışdı (KDDA, fond p-6, list. 1, iş 48,v. 28).

1917-ci ilin oktyabrın 25-də Petroqradda bolşeviklər tərəfindən çevriliş həyata keçirildi, Rusiyada Müvəqqəti Hökumət devrildi. Səlahiyyətli dövlət orqanı kimi Sovet hakimiyyəti bərqərar oldu, Rusiya Sovet Sosialist Respublikası elan edildi. Tezliklə Sovet hakimiyyəti keçmiş Rusiya imperiyasının bütün ərazilərinə, o cümlədən Donda da yayılmağa başladı.

## 2. Don Sovet Respublikası Və Don Respublikasının Yaranması

Don uğrunda gedən qızğın döyüşlərdən sonra 1918-ci ilin fevralın sonlarına "Könüllü Ordu" hissələri və general Kaledinin başçılıq etdiyi kazak hərbi hissələri Donu tərk etməyə məcbur oldular və 1918-ci ilin fevralın 25-də Don Hərbi Dairəsində Sovet hakimiyyəti bərqərar oldu (Istoriya donskogo kazachestva. Uchebnik dlya studentov vuzov, 2008). 1918-ci ilin martın 23-də Don Vilayət Hərbi İnqilab Komitəsi mərkəzi Rostov olmaqla Don Respublikasını elan etdi. 9-14 aprel 1918-ci il tarixdə Rostovda Don Respublikasının fəhlə və kazak sovetlərinin I qurultayı keçirildi Qurultayda Don Respublikasının adı dəyişdirilib Don Sovet Respublikası adlandırıldı (Sovetskaya istoricheskaya entsiklopediya, T. 5, 1964). Don Sovet Respublikası özünü Rusiya Sovet Respublikası ilə ittifaqda elan etdi. Don Sovet Respublikası həyata keçirdiyi dekretləri, xüsusən torpağın milliləşdirilməsi və pulsuz olaraq torpaqsız kəndlilərə paylanması kazak təbəqəsinin narazılığına səbəb oldu və nəticədə, Don Sovet

Respublikası ərazisində kazak üsyanları başladı. 1918-ci ilin mayın 6-da qüvvələrini artıran kazaklar hücum edib Novoçerkaskını bolşeviklərdən azad etdilər. 1918-ci ilin mayın 8-də Rostov şəhəri Almaniyanın 52-ci Vürtemberq rezerv piyada briqadası tərəfindən ələ keçirildi. Alman ordusunun hücumu nəticəsində Qırmızı Ordu təcili olaraq Tsaritsın istiqamətində çəkilməyə başladı və mayın 18-də mərkəzi Novoçerkask olmaqla Böyük Don Ordusu-Don Respublikası elan edildi. Bir neçə ay ərzində ağqvardiyaçıların və Almaniya hərbi hissələrinin köməyi ilə kazaklar bütün Don ərazilərini bolşevik qvardiyalarından təmizlədilər. 1918-ci ilin yayında Donda ağlarla qırmızılar arasında davam edən silahlı mübarizə sentyabrın əvvəllərində general Krasnovun başçılıq etdiyi kazak birliklərinin qələbəsi ilə başa çatdı.

### 3. Donda dövlət quruculuğu və xarici siyasət

1918-ci ilin sentyabrın 15-də general Krasnov Böyük Don Dairəsi (kruq) çağırdı və burada yaratdıqları respublikanın adının Böyük Don Qoşunu kimi saxlanılması qərara alındı. Parlamentli respublika olan bu dövlətdə dövlət başçısı ataman titulu daşıyırdı, parlament isə Qoşun yığıncağı adlanırdı (Ağasiyev, Don respublikasının yaranması və fəaliyyəti, 2021). Böyük Don Qoşunu (Don Respublikası) indiki Rusiyanın Rostov, Volqoqrad, həmçinin Ukraynanın Luqansk və Donetsk vilayətlərinin ərazilərini öz ərazisi elan etmişdi. Dövlət dili olaraq rus dili və rus dilinin kazak ləhcəsi elan olunmuşdu. Dövlət simvolikasında hələ orta əsrlərdən Don kazaklarına məxsus elementlər yer almışdı (Zakon Vsevelikogo Voyska Donskogo, 1992).

Don Respublikasının Konstitusiyası 1918-ci ilin avqust-sentyabrında hazırlanmış və Böyük Qoşun Şurası tərəfindən təsdiqlənmişdi. Bu Rusiyada qəbul olunmuş birinci regional Konstitusiya idi. Konstitusiyaya görə Böyük Don Qoşunu müstəqil dövlət elan edilir, onun əsasını xalq hakimiyyəti təşkil edirdi (Ağasiyev, Don respublikasının yaranması və fəaliyyəti, 2021). Özünü respublika adlandıran bu hərbi dövlətdə Ali Qanunverici hakimiyyət Qoşun Şurasına məxsus idi. Ali icraedici hakimiyyətin başında Qoşun Şurası tərəfindən təyin edilən Qoşun Atamanı dururdu. Konstitusiyaya görə əhali iki kateqoriyaya bölünürdü: kazaklar və mülki əhali. Kazak olmayan hər kəs mülki şəxs adlanırdı. Böyük Qoşun Şurasına nümayəndə seçmək hüququ yalnız kazaklara verilmişdi.

Bolşevizmi qəbul etməyən Böyük Don Qoşunu Sovet Rusiyasını özünün düşməni elan etmişdi. Ən yaxın müttəfiqləri isə general Denikinin "Könüllü Ordusu", Getman Pavlo Skoropadskinin başçılıq etdiyi Ukrayna Xalq Respublikası və qonşusu Kuban Xalq Respublikası idi. Hətta 1918-ci ildə adları çəkilən bu 3 dövlət federativ əsaslarda birləşmək məsələlərini müzakirə etmişdilər (Ağasiyev, Kuban Xalq Respublikasının yaranması, 2021).

Böyük Don Qoşunu respublikasının atamanı general P. N. Krasnov Almaniyameylli siyasət yeridirdi və bu onunla "Könüllü Ordu" komandanı Denikin arasında ixtilaflara səbəb oldu. Çünki Denikin " Antanta" ilə əməkdaşlıq edirdi, almanlarla sülh bağlanmasına qarşı çıxırdı. Bütün bunlara baxmayaraq, hər iki tərəf ən ciddi təhlükə kimi bolşevizmi görürdülər və bolşevizmə qarşı mübarizədə birləşmişdilər. Bu səbəbdən, "Könüllü Ordu" Almaniyadan bolşeviklərə qarşı istifadə etməkdən də vaz keçmirdi. 1918-ci ilin yazından Almaniya silahlı qüvvələrinin Don Hərbi Dairəsinə və Azov dənizi akvarelinə daxil olmasını Denikin bolşevizmə qarşı mübarizədə dəstək kimi qiymətləndirirdi (Krasnov, 1992).

1919-cu il yanvarın əvvəllərində bölşevizmə qarşı olan bütün qüvvələr tərəfindən general A. İ. Denikin Cənubi Rusiya Silahlı Qüvvələrinin (CRSQ) və Don ordusunun Baş komandanı kimi qəbul edildi. Don kazaklarının general Denikinə güzəşti beynəlxalq aləmdə baş verən hadisələrlə bağlı idi: 1918-ci ilin noyabr inqilabından sonra Almaniya qoşunlarının Dondan geri çəkilməsi, 1918-ci ilin sonu - 1919-cu ilin əvvəllərinə kazakların Tsaritsına hücumlarının uğursuzluğu, eyni zamanda general Krasnovun rəqibi Denikinin "Könüllü Ordu"sunun Kubana uğurlu yürüşü - bütün bu amillər Don respublikasının başçısı ataman Krasnovun nüfuzunun düşməsinə səbəb oldu və O, 1919-cu ilin yanvarın 8-də Cənubi Rusiya Silahlı Qüvvələrini yaradan general Denikinin hakimiyyətini qəbul etməyə məcbur oldu. Fevral ayında isə Krasnov istefa verərək Rusiyanı birdəfəlik tərk etdi və Don kazakları onlara muxtariyyət vəd edən A. İ. Denikinlə birləşdilər.Beləliklə, Don Respublikası Cənubi Rusiya Silahlı Qüvvələri tərkibinə inkorporasiya olundu. Donda hakimiyyət praktiki olaraq general Denikinin əlinə keçdi.

## 4. Azərbaycan Xalq Cümhuriyyətinin Don Respublikası və Cənubi Rusiya Silahlı Qüvvələri ilə münasibətləri

Şimali Qafqazın digər yeni yaranmış gənc dövlətləri ilə əlaqələrin qurulması Azərbaycan Xalq Cümhuriyyətinin dövlət təhlükəsizliyinin möhkəmləndirilməsinə xidmət edirdi, çünki bu dövlətlər Sovet Rusiyası ilə Azərbaycan arasında təhlükəsizlik zolağı yaradırdılar.Bu nöqteyi nəzərdən, Azərbaycan Xalq Cümhuriyyəti Kuban respublikası ilə yanaşı Don respublikası ilə də münasibətlərin qurulmasına böyük önəm vermişdi.

1919-cu ilin yanvarında həm Kuban, həm də Don respublikaları Cənubi Rusiya Silahlı Qüvvələri adlı hərbi-inzibati birliyə tabe oldular və ordularını Denikin ordusuna qatdılar. Kuban Respublikası həm siyasi, həm də iqtisadi cəhətdən CRSQ-dən tam asılı vəziyyətə düşməmişdi, belə ki, hətta 1919-cu ilin sonuna Don, CRSQ ilə Kuban arasında hələ də gömrük sərhədləri qalmaqda idi (KDDA, fond p-6, list 1, iş 126, v.232.). Lakin Don Respublikası haqqında bunu demək olmazdı: burada hakimiyyət tam olaraq general Denikinin əlinə keçdi və Don respublikası 1919-cu ilin yanvarından CRSQ-nə inkorporasiya etdi.Təsadüfi deyildir

ki, Cənubi Rusiya Silahlı Qüvvələri özünün mərkəzi kimi Don ərazisində yerləşən Taqanroq şəhərini seçmişdi.

Azərbaycan Xalq Cümhuriyyətinin Cənubi Rusiya Silahlı Qüvvələri ilə münasibətləri təzadlı olmuşdur. Bir tərəfdən həm AXC, həm də Don biri-birilə iqtisadi əməkdaşlığa ehtiyac duyurdular, çünki Azərbaycan Hökuməti taxıl məhsulları ilə zəngin bu regionla əməkdaşlıqda maraqlı idi.Don Respublikasının, o cümlədən CRSQ-nin isə Bakı neftinə və neft məhsullarına ehtiyacı var idi. İkinci tərəfdən, siyasi məsələlərdə hər iki tərəfi birləşdirən bəzi amillər olsa da, (məsələn, bolşevizmə qarşı birgə mübarizə), bir çox prinsipial məsələlərdə - "rus məsələsi"nin həlli yolları və perspektivləri, Dağlı respublikası ilə bağlı, Xəzər donanmasının bölüşdürülməsi və ondan irəli gələn məsələlərdə mövqelər fərqli idi.

Qeyd etdiyimiz kimi, Don Respublikası Konstitusiyasına görə suveren dövlət elan olunmuşdu, ancaq "rus məsələsi" ağqvardiyaçıların xeyrinə həll olunardısa, bu respublika özünü Rusiya dövlətçiliyi çərçivəsindən kənarda görmürdü. AXC-nin bu məsələdə mövqeyi belə idi ki, Azərbaycan xalqı öz müqəddəratını həll etmişdir, öz müstəqil dövlətini qurmuşdur və gələcəkdə hər hansı bir formada heç bir dövlətin tərkibinə daxil olmağı planlaşdırmırdı (ARDTA, fond 970, list 1, iş 143, v. 56). ''Vahid və bölünməz Rusiya" şüarını bayraq etmiş general Denikin isə çar Rusiyasının 1914-cü ildəki sərhədlərdə bərpa olunması uğrunda mübarizə aparırdı və 1919-cu ilin yanvarın 8-də yaratdığı CRSQ bu planın tərkib hissəsi idi.Artıq Ukraynanın cənubundan Zakaspi vilayətinədək bütün əraziləri, o cümlədən Ermənistan respublikasını nəzarətə alan Denikinin əsas məqsədi Dağlı respublikasını, AXC və Gürcüstanı da bu qurumun tərkibinə qatmaq idi (ARDTA, fond 894, list 10, iş 112, v. 134-135).

Bu səbəbdən, Dağlı respublikası ilə bağlı məsələlərdə CRSQ ilə AXC arasında kəskin diplomatik mübarizə gedirdi. Bu mübarizə 1919-cu ilin yazında ən yüksək fazasına çatmışdı ki, bu da CRSQ-nin qonşu Dağlı respublikasına qarşı hərbi təcavüzünün artması ilə bağlı idi. Belə ki, CRSQ-nin orduları 1919-cu mayın 8-də Petrovsku (Maxaçkala) və mayın 10-da Dərbəndi ələ keçirdilər. AXC-nın Dağlı respublikasındakı diplomatik nümayəndəsi Ə.Haqver-diyev Xarici İşlər Naziri M. Cəfərova göndərdiyi məxfi məlumatda bildirirdi ki, "Könüllü Ordu" Dağıstana daxil olmuşdur və "Terek – Dağıstan diyarının Baş komandanı" general Erdeli Temir-xan-Şuraya gəlmişdir. Temir xan Şurada çıxışı zamanı general Erdeli bəyan etdi ki, könüllülərin Azərbaycanın sərhədlərini pozmaq kimi planları yoxdur, yalnız onlar Qızıl Burun – Zaqatala xəttinədək gələcəklər. Əgər Azərbaycan buna imkan verməzsə, bu Azərbaycanın Denikinə müharibə elan etməsi kimi qiymətləndiriləcəkdir (ARDTA, fond 970, list 1, iş 48, v. 44).

CRSQ tərəfindən Dağlı respublikasının işğal olunması AXC üçün böyük təhlükə yaratdı və Denikin qoşunları artıq Azərbaycanın şimal hüdudlarında qərarlaşmışdılar. Qurudan savayı, AXC-yə Xəzər dənizi tərəfdən də təhlükələr artmaqda idi. Bu narahatlıq ingilislərin Bakı limanını, Xəzər nəqliyyatının idarəçiliyini Denikinə verməyə hazırlaşması haqqında məlumatlardan sonra daha da artdı (ARDTA, fond 970, list 1, iş 48, v. 45).

"Россия" qəzetinin 1919-cu ilin 30 iyul tarixli nömrəsində İngilis komandanlığının Xəzər donanmasını "Konüllü Ordu"ya verməsi haqqında məlumat yer aldı (Azerbaycanskaya Demokratiçeskaya Respublika.Vneşnaya politika, 1998). Britaniya hökumətinin qərarı ilə ingilislərin sərəncamında olan Xəzər Donanmasının böyük hissəsi avqustun əvvəllərində "Könüllü Ordu"nun ixtiyarına verildi (ARDTA, fond 987, list 1, iş 38, v. 205). Bununla baglı, 1919-cu ilin 3 avqust tarixində AXC Nazirlər Şurasının sədri, N. Usubbəyov Cənubi Qafqazdakı Britaniya qüvvələrinin komandanı general-mayor Q. N. Koriyə nota göndərdi (Azerbaycanskaya Demokratiçeskaya Respublika.Vneşnaya politika, 1998). Notada N.Usubbəyov bildirdi ki, "Xəzərdəki İngilis donanmasının "Könüllü Orduya" verilməsi AXC-nın ərazi bütövlüyünə və ölkə daxilində sabitliyinə təhlükə yaradır" (ARDTA, fond 987, list 1, iş 38, v. 205). N.Usubbəyov Xəzər hərbi donanmasının "Könüllü Orduya" verilməsini Azərbaycanın müstəqilliyinə, ərazi bütövlüyünə birbaşa təhlükə kimi qiymətləndirdi və Q. N. Koridən Xəzər donanmasının Denikinə verilməsi haqqında qərarın ləgv olunmasını xahiş etdi (Azerbaycanskaya Demokratiçeskaya Respublika, Vneşnaya politika, 1998). General - mayor Q. N. Kori Azərbaycan hökumət başçısı N. Usubbəyova 04 avqust 1919-cu il tarixdə cavab məktubu göndərdi. Məktubda Azərbaycana xəbərdarlıq edilirdi ki, Denikin ordusunun nəzarətində olan ərazilərə qarşı hər hansı iddialardan və müdaxilələrdən çəkinsinlər. Eyni zamanda, Denikin ordusuna yardım edilməsi və ilk növbədə Denikin və Kolçakın əlində olan Xəzər donanmasını kerasin və sair ləvazimatlarla təhciz etmək və bolşeviklərlə hər hansı bir əməkdaşlıqdan çəkinmək tövsiyə edilirdi. Britaniya hökuməti bildirirdi ki, əgər qoyduğu bu şərtlərə əməl olunmazsa, onda Britaniya hökuməti Cənubi Qafqaz respublikalarına qarşı Denikin təcavüzünün qarşısını kəsməyəcəkdir (Borba za pobedu Sovetskoy vlasti v Azerbaydzhane 1918-1920 gg., 1967).

Xəzər donanması ilə bağlı yaranan məsələ ilə əlaqəli Azərbaycanın Xarici İşlər Naziri M.Cəfərov Bakıdakı Britaniya müttəfiq qoşunlarının komandanı general D. Şatelvorqa məktubla müraciət edərək Böyük Britaniya hökumətindən xahiş etdi ki, "Könüllü Orduya" ayrılan qədər gəmilərin Azərbaycan tərəfinə də verilməsinə qərar versinlər (ARDTA, fond 970). General D. Şatelvorq 1919-cu ilin avqustun 6-da AXC-nin Xarici İşlər Nazirinə göndərdiyi rəsmi məktubda göstərirdi ki, "Xəzər dənizində Britaniya donanması bolşeviklərlə

mübarizə məqsədilə yaradılmışdır. Bizim bu aralardan getmək məsələmiz artıq həll olunduğundan, siyasətimizin davamı kimi, Britaniya hökuməti bu paraxodların Denikinə verilməsini əmr etmişdir" (Borba za pobedu Sovetskoy vlasti v Azerbaydzhane 1918-1920 gg., Dokumenty i materialy, 1967).

1919-cu il avqustun 8-də M. Cəfərov general D. Şatelvorqa cavab məktubu göndərdi və bildirdi ki, Azərbaycan hökumətinin də ən ali məqsədlərindən biri bolşevizmə qarşı mübarizə aparmaqdır və Azərbaycan Britaniya hökumətindən gəmilər istəməklə Xəzər sahili ərazilərini bolşeviklərdən qorumaq məqsədi güdür. Azərbaycan hökuməti Xəzər donanmasının heç olmasa, bir hissəsinin Azərbaycana verilməsi ilə bağlı Britaniya hökumətinə dəfələrlə müraciət etməli olmuşdu (ARDTA, fond 894, list 10, iş 86, v. 30).

Yaranan məsələləri həll etmək məqsədilə Denikin general N. N. Baratovu 1919-cu ilin avqustun əvvəllərində Cənubi Rusiya Silahlı Qüvvələrinin Baş komandanlığının Cənubi Qafqazdakı Britaniya Baş komandanlığında nümayəndəsi təyin etdi və Baratov 1919-cu il avqustun 6-da öz diplomatik vəzifələrini yerinə yetirmək üçün Tiflisə gəldi. Qeyd edək ki, 1919-cu ilin avqustunadək Cənubi Qafqazdakı Britaniya qoşunları qərargahında "Könüllü Ordu"nun diplomatik nümayəndəsi vəzifəsini polkovnik Politsın yerinə yetirmişdir və demək lazımdır ki, onun dövründə AXC hökuməti ilə əlaqələrin qurulmasına elə də ciddi cəhdlər edilməmişdir (ARDTA, fond 894, list 10, iş 86, v. 26). 1919-cu il avqustun sonlarında Politsını general Baratov əvəz etdi. Baratov əvvəl Tiflisə, sonra isə Bakıya gəldi. "Könüllü Ordu"nun rəsmi nümayəndəsinə bu iki respublika ilə danışıqlar aparmaq və müqavilə bağlamaq tapşırığı verilmişdi. Baratov Bakıda AXC hökumət başçısı və parlament rəhbərliyi ilə görüşlər keçirdi, danışıqlar apardı və bu danışıqlarda bir çox məsələlərlə yanaşı, Xəzər dənizində gəmilərin Azərbaycan bayrağı altında üzməsi məsələsi də müzakirə olundu (ARDTA, fond 970, list 1, iş 144, v. 11-12).

1919-cu ilin avqustun 22 - də ingilislər Bakını tərk edərkən AXC hökumətinə limanların idarəçiliyini, radiostansiya, müəyyən sayda hərbi sursat və əsgəri təhcizat, həmçinin, bir neçə hərbi gəmi verdilər ki, bu gəmilərdən Azərbaycan Xəzər Donanması təşkil edildi . "Крюгер" və sair gəmilər isə Petrovska, Denikinin sərəncamına göndərildi. "Könüllü Ordu"ya gəldikdə o artıq bütün Dağıstanı ələ keçirmişdi və AXC ilə Cənubi Rusiya Silahlı Qüvvələri arasında sərhəd ikinci demarkasiyaya görə Samur çayı boyunca təyin edilmiş, AXC -nin Dağlı Respublikasındakı diplomatik nümayəndəsi Ə.Haqverdiyev denikinçilər tərəfindən qovulmuşdu (ARDTA, fond 970, list1, iş 144, v. 1-8). Artıq CRSQ Azərbaycanla həm quru, həm də dəniz sərhəddinə malik idi və AXC hökuməti öz təhlükəsizliyi naminə CRSQ ilə sabit qonşuluq

münasibətləri qurmaqda maraqlı idi.1919-cu ilin sentyabrında CRSQ ilə yaxınlaşmaq istiqamətundə bir sıra addımlar atıldı.

AXC-nin Donla əlaqələr qurmaqda marağı onda idi ki, bu regionda ildə 70 milyon pud buğda istehsal olunurdu və AXC bu respublikadan buğda idxal etməyi, əvəzində isə ona neft və kerosin satmağı planlaşdırırdı. 1919-cu ilə olan məlumatlara görə hər ay Azərbaycanda 17 milyon pud neft hasil edilirdi və çıxarılan neftin satışında əngəllər olduğundan həmin ilin sentyabrında Bakıda artıq 200 milyon pud neft ehtiyatı cəmlənmişdi (ARDTA, fond 970, list 1, iş 144, v. 11-12).

1919-cu ilin sentyabrın 11-də Bakıda Cənubi Rusiya Silahlı Qüvvələrinin Baş komandanlığı ilə Azərbaycan Respublikası arasında teleqraf, poçt, dəmir yolu və su nəqliyyatı üzrə, həmçinin iqtisadi və maliyyə məsələlərinə aid razılaşmaların layihələrinin hazırlanması haqqında ilkin əməkdaşlıq Aktı bağlandı (ARDTA, fond 894, list 10, iş.86, v. 66). Bu Akta görə aşağıdakılar nəzərdə tutulurdu:

1) teleqraf və radio vasitəsilə təxirə salınmadan Bakı və Rostov arasında əlaqələrin bərpa edilməsi;

2) poçt mübadiləsinin bərpası;

3) dəmiryolu və su nəqliyyatının nizama salınması;

4) kuryerlərin toxunulmazlığına zəmanət verərək, onların maneəsiz olaraq Rostov və Bakı arasında hərəkətinə şərait yaratmaq;

5) iqtisadi və maliyyə məsələləri üzrə müqavilələrin layihələrinin hazırlanmasına başlamaq.

Tərəflər razılığa gəldilər ki, bütün nəzərdə tutulanları həyata keçirmək üçün müvafiq nazirliklərin və idarələrin nümayəndələri Rostovdan Bakıya ezam olunacaqlar və burada birlikdə adı çəkilən layihələr hazırlanacaqdır. Sazişi Cənubi Rusiya Silahlı Qüvvələri tərəfdən general N.Baratov, Azərbaycan tərəfdən isə hökumətin sədri N. Usubbəyov imzaladılar (ARDTA, fond 894, list 10, iş.86, v. 66). Ancaq, bu Aktın bağlanmasından bir qədər sonra – sentyabrin 21-də AXC hökumətinə Cənubi Rusiya Silahlı Qüvvələri dəniz idarəsi rəisinin rəsmi məktubu daxil oldu. Məktubda tələb olunurdu ki, Xəzər dənizində hərəkət edən Azərbaycan gəmiləri rus bayraqları altında üzməlidirlər və əsas kimi 1828-ci ildə çar Rusiyası ilə Qacar İranı arasında bağlanan Türkmənçay sülhünün şərtləri göstərilirdi (ARDTA, fond 897, list 1, iş 38, v. 210). 21 sentyabrda rusların qəbul etdiyi qərarda göstərirdi ki, Denikin AXC-yə qarşı düşmən münasibətindən əl çəkməmişdir və Azərbaycan gəmilərinin rus bayrağı altında üzməsi tələbi suveren respublikaya qarşı təcavüz və hörmətsizlik kimi qiymətləndirilirdi.

CRSQ ilə münassibətlərdə mövcud problemlərin həlli üçün 1919-cu il sentyabrın 24-də Azərbaycanın Kuban və Don respublikalarındakı diplomatik nümayəndəsi Cəfər bəy Rüstəm-bəyova Cənubi Rusiya Silahlı Qüvvələrində Azərbaycanın nümayəndəsi vəzifəsini də yerinə yetirmək həvalə edildi. Eyni zamanda, 1919-cu il 24 sentyabr tarixində Paşa bəy Sultanov Azərbaycan Respublikasının Rostov şəhərində konsulu təyin olundu (Azerbaycanskaya Demokratiçeskaya Respublika, Vneşnaya politika, 1998). Hökumət bu təyinatla həmin dövrdə Denikinlə Azərbaycan arasında münasibətlərin gərginləşdiyi bir dövrdə səfir C.Rüstəm-bəyovun işini qismən yüngülləşdirmək istəyirdi.

Bayraq insidentilə bağlı 1919-cu il oktyabrın 21-də AXC-nin Dövlət Müdafiə Komitəsi iclasa yığışdı. İclasda qərar qəbul edildi ki, Türkmənçay müqaviləsi Rusiya və Persiya arasında bağlandığından yalnız bu ölkələr üçün keçərlidir, yeni yaranmış dövlətlərə bu müqavilənin şərtlərinin aidiyyatı yoxdur və Cənubi Rusiya Silahlı Qüvvələri komandanlığının suveren Azərbaycana qarşı yuxarıda göstərilən tələbi Respublikanın suverenliyinə qarşı yönəlmiş akt kimi qiymətləndirildi (ARDTA, fond 897, list 1, iş 38, v. 210).

C. Rüstəmbəyov 1919 il oktyabrın 22-də Azərbaycan Xarici İşlər Nazirliyinə ünvanladığı məruzədə son günlərdə 4 dəfə Taqanroqa gedərək, Denikinlə görüşməyə cəhd göstərməsi, lakin rədd cavabı alması, Denikinin Azərbaycanı Dağıstan üsyançılarına yardım göstərməkdə günahlandırması, Denikinin Azərbaycana qarşı təcavüzünün açıq-aşkar artması haqqında məlumat göndərdi.Bu məsələ ilə bağlı AXC-nin Xarici İşlər Naziri M.Cəfərov 1919-cu il oktyabrın 26-da Cənubi Qafqazdakı Britaniya Ali komissarı O. Ourdropa Nota göndərdi. M. Cəfərov Britaniyanın Cənubi Qafqazdakı Ali komissarına müraciət edərək baş verən bu insident barədə Britaniya hökumətinə xəbər verməyi və Cənubi Rusiya Silahlı Qüvvələrinə qarşı lazımı ölçülərin görülməsini xahiş edirdi (ARDTA, fond 897, list 1, iş 38, v. 205).

1919-cu il oktyabrın 27-də “Könüllü Ordu” komandanlığı AXC hökumətinə nota verdi. Notada Azərbaycanın Xəzər donanmasına Azərbaycan bayraqları altında üzməyin qadağan olunduğu bir daha bildirilirdi və əsas kimi 1828-ci ildə çar Rusiyası ilə Qacar İranı arasında bağlanan Türkmənçay müqaviləsinin 5-ci maddəsi göstərilirdi. Bu maddəyə görə İrana Xəzər dənizində donanma saxlamaq qadağan olunurdu. Azərbaycan rəsmiləri bir daha bəyan etdilər ki, Türkmənçay müqaviləsinin şərtlərinin AXC-yə dəxli yoxdur və Azərbaycan Xəzər dənizinin sahilində yerləşən bir dövlət kimi bu dənizdə ticari və hərbi donanma saxlamaq hüququna malikdir (ARDTA, fond 970, list1, iş 120, v. 21-22).

1919-cu ilin oktyabrından AXC ilə “Könüllü Ordu” arasında münasibətlər yenidən korlanmağa başladı ki, bu da Dağıstanda başlayan Denikinə qarşı xalq qiyamları və bir neçə ay uzanan bayraq mübahisəsi ilə bağlı idi. “Könüllü Ordu” Dağıstanı tutduqdan sonra ona qarşı

burada dağlı xalqlarının mübarizəsi başlamışdı. 1919-cu il oktyabrın sonlarında Çeçenistan, İnquşetiya üsyançıların əlinə keçdi. Denikinin Petrovskla dəmir yolu əlaqəsi kəsildi, Dərbənddə qərarlaşan "Könüllü Ordu" qarnizonu mühasirəyə alındı. Beləliklə, Dağıstanın və Çeçenistanın dağlıq ərazilərinin çox hissəsi denikinçilərdən təmizləndi. "Könüllü Ordu" komandanlığı hesab edirdi ki, Dağıstandakı Denikinə qarşı qiyamlarda Azərbaycanın əli var (ARDTA, fond 970, list1, iş 144, v. 14-17).

Bayraq məsələsi ilə bağlı yaranan problemləri nizama salmaq üçün isə AXC hökuməti "Könüllü Ordu" ilə yazışmaları davam etdirirdi. AXC və CRSQ arasında müqavilə bağlanmasa da, Azərbaycanla "Könüllü Ordu" arasında rəsmi münasibətlər 1919-cu ilin noyabrından yavaş-yavaş yoluna düşürdü. Belə ki, Bakıda, əvvəllər ingilis komandanlığında xidmət etmiş Denikinin nümayəndəsi polkovnik Politsın 1919-cu ilin noyabrında yenə Bakıda artıq bu dəfə Cənubi Rusiya Silahlı Qüvvələrinin Azərbaycanda nümayəndəsi kimi xidmətini davam etdirməyə başladı. İkinci tərəfdən, Azərbaycanın Kuban Xalq Respublikasındakı diplomatik nümayəndəsi də "Könüllü Ordu" tərəfindən rəsmən tanınmasa da, qeyri-rəsmi olaraq general Denikin tərəfindən tanınmışdı. AXC-nin Rostovda, Petrovskda, Krımda və Şimali Qafqazda konsulluqları fəaliyyətini davam etdirirdi (ARDTA, fond 970, list1, iş 144, v. 1-8).

1919-cu ilin payızında Cənubi Rusiya Silahlı Qüvvələrinin Moskvaya hücumları dayandırıldı və "ağlar" tədricən cənuba doğru geri çəkilməyə başladılar. Çar Rusiyasını bərpa etməyi planlaşdıran Denikinin AXC və Gürcüstanla müttəfiqlik yaratmaq cəhdləri boşa çıxdı. AXC "Rus məsələsi"ni Rusiyanın daxili işi sayırdı və heç bir halda ağlarla qırmızıların mübarizəsinə qarışmaq niyyəti yox idi və Azərbaycanın gələcəyini azad Qafqaz dövlətləri birliyində görürdü. Analoji mövqeni həmçinin Cürcüstan respublikası da sərgiləyirdi (ARDTA, fond 970, list1, iş 143, v. 65-66).

Yaranmış vəziyyətlə bağlı 1919-cu il noyabrın ortalarında general Baratov Tiflisi, Baratovun nümayəndəsi Palitsın isə Bakını tərk etdilər. Cənubi Rusiya Silahlı Qüvvələri nümayəndələrinin Cənubi Qafqazı tərk etməsi AXC rəhbərliyini narahat edirdi və bütün bunlar "Könüllü Ordu"nun Azərbaycana qarşı təcavüzə hazırlığı ilə kimi başa düşülürdü. Yaranmış beynəlxalq vəziyyət AXC hakimiyyətindən bir qədər də diqqətli olmağı tələb edirdi (ARDTA, fond 970, list1, iş 144, v. 14-17).

Bolşeviklərə qarşı apardığı mübarizədə Denikin nəinki Azərbaycan və Gürcüstanla müttəfiqlik yaratdı, əksinə bu respublikaların müstəqil mövqeyinə görə 1919-cu ilin noyabrın 19-da Cənubi Qafqazın iqtisadi blokadaya alınması haqqında əmr imzaladı. Denikinin Azərbaycana və Gürcüstana qarşı elan etdiyi iqtisadi blokada nəticəsiz qaldı. Denikin nə hərbi-siyasi yolla, nə də ki, iqtisadi blokada vasitəsi ilə bu dövlətləri asılılığa sala

bilmədi. Azərbaycan Xalq Cümhuriyyətinə qarşı Denikinin münasibəti kəskinləşdi və ağqvardiyaçılar tərəfindən həbs olunma təhlükəsi qarşısında qalan C. Rüstəmbəyov 1919-cu ilin noyabrın sonlarında Novorossiysk vasitəsilə Bakıya qayıtmağa məcbur oldu.

**Nəticə**

Beləliklə, AXC-nin Don respublikası ilə münasibətləri 1919-cu ilin yazından AXC - CRSQ münasibətləri kontekstində qurulmuşdu. Çünki, 1919-cu ilin yanvarında Denikinin komandanlığı ilə yaradılan CRSQ adlı hərbi-inzibati qurum Kuban və Don respublikalarını öz tabeliyinə keçirmişdi. Kuban respublikası öz siyasi müstəqilliyini qismən qorusa da, Don respublikası tamamən CRSQ-yə inkorparasiya etdi. CRSQ bununla kifayətlənməyərək, Dağlı respublikasını da öz tərkibinə qatmağı planlaşdırmış, ona qarşı hərbi təcavüzünü artırmışdı. 1919-cu ilin mayında CRSQ Dağlı respublikasını işğal etdi və bununla da həm Xəzər dənizinə , həm də AXC-nin şimal sərhədlərinə çıxdı və həm qurudan, həm də dənizdən Azərbaycana təhlükələr yarandı. Denikini öz müttəfiqi sayan ingilis komandanlığının Xəzər Donanmasının bir hissəsini CRSQ-ya vermək haqqında qərarı AXC hökumətində narahatlıq yaratdı və Azərbaycan Xəzər Donanmasından öz payını tələb etdi. Xəzər Donanmasının bir hissəsinin əldə edilməsi AXC-nin təhlükəsizliyinə təminat vermədi. Çünki, CRSQ komandanlığı Xəzərdə Azərbaycan Donanmasının Rusiya bayraqları altında üzməsini tələb edirdi ki, bu da AXC- nin müstəqilliyinin tanınmaması demək idi. AXC və CRSQ arasında Xəzər Donanması ilə bağlı mübahisələr 1919-cu ilin sonunadək davam etdi və ilin sonunda səngidi. Çünki, Qırmızı Ordu tərəfindən məğlubiyyətlər alan Denikinin başı artıq öz hakimiyyətinin qorunmasına qarışmışdı.

1919-cu ilin sonuna Rusiyanın cənubunda antibolşevik qüvvələr ardı-ardınca məğlubiyyətlərə uğramaqda davam edirdilər.1920-ci ilin əvvəllərindən bolşevik dəstələri Donun paytaxtı Novoçerkassını ələ keçirdi. 1920-ci ilin yanvarın 10-da S. M. Budyonnunun komandanlığı ilə Atlı ordusu Rostov şəhərini tutdu.1920-ci ilin fevralın 7-də A. İ. Denikinin rəhbərliyi ilə başlanan Cənubi Rusiya Silahlı Qüvvələrinin əks-hücumu nəticəsində Rostov şəhəri ələ keçirilsə də, ağlar tezliklə onu döyüşsüz tərk etməyə məcbur olduar (Denikin, 1926). 1920 - ci ilin 25-27 fevral tarixlərində Yeqorlık yaxınlığında Vətəndaş müharibəsi dövründə ən böyük atlı döyüşü baş verdi və bu döyüş Don Respublikasının və CRSQ-nin taleyini həll etdi. Qırmızı ordu hissələrinin zərbələri altında Cənubi Rusiya Silahlı Qüvvələri dağıldı, “Könüllü Ordu” kazak dəstələrinin qalıqları ilə Novorossiyaya, oradan da Krım yarımadasına çəkildilər. 1920-ci ilin aprelinə Böyük Don Qoşunu – Don Respublikası ləğv edildi, bütün Don və ətrafı ərazilərdə Sovet hakimiyyəti bərqərar oldu.

**Kaynaklar**

Azerbaycan Respublikasının Devlet Tarih Arşivi (kısaca-ARDTA), fond 894, liste 10, iş 86.

ARDTA, fond 894, liste 10, iş 112.

ARDTA, fond 897, liste 1, iş 38.

ARDTA, fond 970, liste 1, iş 38.

ARDTA, fond 970, liste 1, iş 48.

ARDTA, fond 970, liste 1, iş 60.

ARDTA, fond 970, liste 1, iş 120.

ARDTA, fond 970, liste 1, iş 142.

ARDTA, fond 970, liste 1, iş 143.

ARDTA, fond 970, liste 1, iş 144.

Krasnodar Diyar Devlet Arşivi (Rusya Federasyonu) , kısaca-KDDA, fond p-6, liste 1, iş 48.
KDDA, fond p-6, liste 1, iş 126.

Ağasiyev, İ. K. (2021). *Kuban Xalq Respublikasının yaranması və fəaliyyəti (1918-1920) Qafqazda ilk respublikalar (1918-1921).* Ideai-print MMC nəşriyyatı.

Ağasiyev, İ. K. (2021). *Don Respublikasının yaranması və fəaliyyəti (1918-1920) Qafqazda ilk respublikalar (1918-1921).* Ideai-print MMC nəşriyyatı.

*Azerbaydzhanskaya Demokraticheskaya Respublika. Vneshnyaya politika. Dokumenty i materialy.* (1998). İzdatelstvo Azerbaydzhan.

Borba za pobedu Sovetskoy vlasti v Azerbaydzhane (1918-1920 gg.), Dokumenty i materialy. (1967). İzdatelstvo Azerbaydzhan.

Denikin, A. I. (1926). *Ocherki russkoy smutı. Vooruzhennyye sili yuga Rossii.* İzdatelstvo Medniy vsadnik.

*Zakon Vsevelikogo Voyska Donskogo ot 4.05.1918 goda- Don i Dobrovolcheskaya armiya.* (1992). İzdatelstvo Qolos.

*İstoriya donskogo kazachestva. Uchebnik dlya studentov vuzov pod redaktsiyey A. V. Venkova.* (2008). İzdatelstvo Yujnoqo Federalnoqo Universiteta.

Krasnov, P. N. (1992). *Vsevelikoye Voyska Donskoye.* İzdatelstvo Public Domain.

Pervaya vseobshchaya perepis' naseleniya Rossiyskoy imperii 1897 goda. (2017). *Demockon Weekly,* 753 – 754.

Sovetskaya istoricheskaya entsiklopediya, T. 5. (1964). *İzdatelstvo Sovetskaya entsiklopediya.*